**1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, insanlar işgəncələrə məruz qalmışdır. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmişdir.**



# Quba Soyqırımı Memorial Kompleksində

1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak-erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar.

2007-ci ilin aprel ayında Quba şəhər stadionunda təmir-qazıntı işləri apararkən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ildə erməni daşnak-quldur dəstələri tərəfindən soyqırıma məruz qalmış yerli dinc əhaliyə aid olduğu müəyyən edilmişdir. Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918-ci ildə bütün ölkə hüdudlarında həyata keçirdikləri cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 dekabr 2009-cu il tarixli sərəncam imzalamışdır. Sərəncama müvafiq olaraq 2012-2013-cü illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilmiş və 2013-cü il sentyabr ayının 18-də ölkə Prezidentinin iştirakı ilə açılışı olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 iyul 2015-ci il tarixli qərarı ilə Soyqırımı Memorial Kompleksi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeçiliyinə verildikdən sonra fəaliyyətini "Qoruq" statusu ilə davam etdirir. Hazırda Soyqırımı Memorial Kompleksi dövlətimizdə erməni vandalizmini özündə əks etdirən yeganə ideoloji mərkəzdir. Kompleksin əsas missiyası erməni vandalizmini olduğu kimi bəyan etmək və Azərbaycan həqiqətlərini həm yerli, həm də beynəlxalq səviyyədə təbliğ etməkdir. Soyqırımı Memorial Kompleksini 2013-cü ildən bəri ümumilikdə 1 milyondan çox insan, o cümlədən dünyanın bir çox ölkələrindən nümayəndələr ziyarət etmişdir.

Bu günlər Soyqırımı Memorial Kompleksini ziyarətə gələnlərin ardı-arası kəsilmir. Onlar "Xatirə abidəsi"ni ziyarət edir, abidə-muzeylə tanış olurlar. Kompleksə ziyarətə gələnlərin əksəriyyətini gənclər təşkil edir. Azərbaycan İlahiyyat İnstitutunun tələbələri də onların arasındadır. **İnstitutun rektoru Aqil Şirinov** bildirir ki, hər il mart ayında tələbələrimizlə birlikdə Quba Soyqırımı Memorial Kompleksinə gəlirik. Məqsəd gənclərimizə ermənilərin xalqımıza qarşı törətdikləri vəhşilikləri əyani surətdə göstərməkdir. Vəhşi erməni cəlladları çoxsaylı insanlarımızın həyatına son qoyublar. Məzarlıqda Azərbaycanda yaşayan müxtəlif dinlərin və etnik qrupların nümayəndələri birlikdə uyuyurlar. Gənclik acı tariximizin bu səhifələrini heç vaxt unutmamalıdır.

Kompleksin abidə-muzeyindəyik. Burada çoxsaylı tamaşaçılar arasında Səudiyyə Ərəbistanından gəlmiş **Mühəmməd Udabi** və **Məha Mühəmmədilə** söhbət edirik. Onlar bildirirlər ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar haqqında çox eşitmişik. Muzeydə bu vəhşiliklər barədə daha ətraflı öyrəndik. **Quba Soyqırımı Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova** deyir ki, hər il 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş respublika tədbirləri Soyqırımı Memorial Kompleksində geniş formatda qeyd olunur. On minlərlə insan Kompleksə gəlir, həm "Xatirə abidəsi"ni, həm də burada yerləşən muzeyi ziyarət edirlər. Gələn yerli və xarici ziyarətçilərə 4 dildə (Azərbaycan, rus, ingilis, ərəb) peşəkar bələdçilər tərəfindən 1918-ci il hadisələri haqqında ətraflı məlumatlar verilir. Bu il də 31 Mart - Azərbaycanlıların soyqırımının 104-cü ildönümü ərəfəsində "31 Mart - Azərbaycanlıların soyqırımı" layihəsi çərçivəsində 28-31 mart günlərində respublikanın bir sıra aparıcı təşkilat və ali məktəblərində "Erməni vəhşilikləri" mövzusunda sərgilər təşkil olunmuşdur.

1918-ci ildə Azərbaycan ərazilərində baş vermiş soyqırımların həm ölkəmizdə, həm də beynəlxalq arenada tanıdılması məqsədilə Kompleksin rəsmi saytında, sosial şəbəkələrdə mövcud olan səhifə və profillərində (Facebook, İnstagram, Youtube, Twitter) mövzu ilə bağlı videoçarxların nümayişi, müxtəlif məlumat və fotoşəkillər yerləşdirilmiş, həmçinin "Muzeyə virtual ekskursiya" layihəsi çərçivəsində sosial media platformasında canlı ekskursiyalar keçirilmişdir. Bundan əlavə, 31 Mart - Azərbaycanlıların soyqırımının 104-cü ildönümü ərəfəsində Kompleksə aid youtube kanalı, facebook, instagram sosial şəbəkə üzərindən canlı bağlantılar yaradılmışdır.

Xaricdə olan rəsmi saytlarda və xəbər portallarında Azərbaycanda baş vermiş hadisələrlə bağlı tarixi həqiqətlərin dünyaya çatdırılması məqsədilə məqalələrin və müsahibələrin yayımlanması üçün müraciətlər olunmuşdur. Argentinada yerləşən Holokost muzeyinə, Ruandada yerləşən Bisesero soyqırımı muzeylərinə əməkdaşlıq üçün müraciət olunmuşdur. Antalya Azərbaycan Kültür və Dayanışma Dərnəyi ilə əməkdaşlıq əlaqələri yaradılmışdır.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

Respublika .- 2022.- 31 mart.- S.8.